Mustafa Çəmənli

# NƏŞRİYYATLARDA KEÇƏN ÖMRÜM



(əvvəli ötən şənbə saylarımızda)

## (Xatirələr)

"Yazıçı" nəşriyyatının daimi və maraqlı müəlliflərindən biri də unudulmaz Qulam Məmmədliydi. Yaşı səksəni keçmiş (25 mart 1897-ci ildə Təbrizdə anadan olmuşdu) görkəmli publisist, teatrşünas, salnaməçi Qulam Məmmədli ensiklopedik yaddaş sahibi idi.

Mən onunla 1980-ci ilin əvvəllərində "Yazıçı" nəşriyyatında şəxsən tanış olmuşdum. Onun vaxtilə Aşqabad Azərbaycan Teatrında həvəskar aktyor kimi çalışdığını biləndə təklif etdim ki, radioda Aşqabad Azərbaycan Teatrı ilə bağlı veriliş hazırlayım, o da öz xatirəsini danışsın. Fikrimlə razılaşdı. Mən onun canlı danışığının lentin "yaddaşına" köçməsini istəyirdim. Bu niyyətlə respublika radiosunun incəsənət şöbəsinin böyük redaktoru İntiqam Mehdizadə ilə danışdım. İntiqam müəllim fikrimi bəyəndi, verilişin mətnini və proqram üçün annotasiyanı redaksiyaya təqdim etməyimi tapşırdı.

Nəhayət, verilişin efirə gedəcəyi vaxt dəqiqləşdi və mən Qulam Məmmədli ilə radioya getdim. Verilişə yarım saat vaxt ayrılmışdı. Qulam müəllimin təkcə elə öz xatirəsi yarım saata ancaq sığardı. İntiqam Mehdizadə sənətə və sənətkara qiymət verən yaradıcı insandı. Mən fürsət tapıb ona dedim ki, Qulam müəllim danışarkən ona vaxt məhdudiyyəti qoymayın, ürəyi istədiyi qədər danışsın, gələcək nəsillər üçün fondda saxlayın.

İntiqam müəllim razılığını bildirdi və mən Qulam müəllimlə mikrofon arxasına keçdim. Mən qabaqcadan Qulam müəllimin söylədiklərini makinada yazdırmışdım. Mətni onun qarşısına qoydum ki, oxusun. O:

- Mən şifahi danışacağam, mətni oxusam, karıxaram, - deyib gözləri yarıyumulu halda yarım saata qədər karıxıbeləmədən Aşqabad Azərbaycan Teatrı ilə bağlı xatirələrini danışdı. Bu veriliş 8 iyul 1980-ci ildə saat 21.40-da respublika radiosunda səsləndi. Veriliş də, Qulam müəllimin çıxışı da bütövlükdə radionun Qızıl fondunda saxlanıldı. Elə həmin ildə "Elm və həyat" jurnalının 7-ci sayında "Aşqabad Azərbaycan Teatrı" adlı məqaləm çap edildi. Bir gün nahar fasiləsindən qayıdarkən dedilər ki, Qulam Məmmədli səni otaqda gözləyir. Doğrusu, şöbəyə bir qədər nigarançılıqla girdim. Görüşüb hal-əhval tutduq. Məlum oldu ki, Qulam müəllim jurnalda adını çəkdiyim məqaləni oxuyub, məni təbrik etmək və fikir bölüşdürmək üçün nəşriyyata gəlib. O, Aşqabadda Azərbaycan teatrının bağlanaraq onun bazası əsasında Türkmənistan Dövlət Opera və Balet Teatrının yarandığını məqaləmdən öyrəndiyini söylədi.

Qulam Məmmədli "Yazıçı" nəşriyyatının ən fəal müəlliflərindən idi. O, elə vacib məsələlərdən, elə tarixi şəxsiyyətlərdən yazırdı ki, nəşriyyatın rəhbərliyi onu get-gələ salmırdı. Onun "Azərbaycan teatrının salnaməsi" (2-ci hissə), "Cavid ömrü boyu", "Üzeyir Hacıbəyov - həyat və yaradıcılığının salnaməsi", "Nəriman Nərimanov" kitabları mənim redaktoru, daha sonra müdiri olduğum klassik ədəbiyyat və folklor redaksiyasında nəşrə hazırlanırdı. Bir dəfə ondan bu qədər zəhmət, səriştə tələb edən salnamələri fasilə vermədən necə yazıb başa gətirməsinin "sirrini" soruşdum. O, nəşri vacib olan bu kitabların üzərində eyni vaxtda işlədiyini söylədi. Günü arxivlərdə, kitabxanalarda keçən Qulam Məmmədli millətimizin bəxtinə yazılmış əlifba müxtəlifliyinin - ərəb, latın, kiril qrafikalarında çap olunmuş dövri mətbuat səhifələrindən gərgin araşdırmalar nəticəsində çoxsaylı salnamələr ortaya qoymuşdu. Mirzə Cəlildən, Hüseyn Caviddən, Üzeyir Hacıbəylidən, Nəriman Nərimanovdan, Hüseyn Ərəblinskidən, Cahangir Zeynalovdan, Abbas Mirzə Şərifzadədən bəhs edən bu salnamələrin hər biri millətə örnək olası şərəfli ömürnamələrdir.

İkinci Dünya müharibəsində İranda çıxan "Vətən yolunda" qəzetində ədəbi işçi olmuş Qulam Məmmədli Cənubi Azərbaycanı qarış-qarış gəzmişdi. Onun cəfakeşliyinin şahidi olan xalq yazıçısı Qılman İlkin müsahibələrinin birində demişdi: "İranda olduğu müddətdə Qulamın baş çəkmədiyi bir kitabxana və ya kitab mağazası qalmamışdı. Həmişə axtarışda idi. Nəticəsi də pis olmadı. Möcüz və Heyran xanım kimi şairləri xalqımıza ilk dəfə o tanıtdı. Əsərlərini ilk dəfə o çap etdirdi. Qulam Cənubi Azərbaycanın, demək olar ki, bu başından vurub, o başından çıxmışdı" ("Həyatım ağrıyır" toplusu, Bakı, "Təhsil", 2013, səh. 176).

Qulam Məmmədli həm də lətifələr söyləməyi sevirdi. Bu ucaboylu, cüssəli, zəhmətdən usanmayan dəyanətli kişinin həm də yaxşı yumor hissi vardı. Bir dəfə o, nəşriyyata gələrkən pilləkəndə qarşılaşdıq. Ayaq saxlayıb nəfəsini dərdi. Bilirdim ki, indi əhvalımızı tarazlamaq üçün kiçik də olsa bir lətifə söyləyəcək. Doğrudan da, belə oldu. Gözündəki qalın şüşəli eynəyini düzəldib dedi:

- Bir nəfər papağının üstündən başını qaşıyırmış, yanındakı bunu görüb ona irad tutur:

- Ə, başını niyə papağın üstündən qaşıyırsan, papağını çıxart, adam kimi başını qaşı də.

Papaqlı halını pozmur:

- Ə, sən yanını qaşıyanda şalvarını çıxarırsan?

Güldüyümü görüb:

- Bəsdi, yoxsa birini də söyləyim, - dedi.

- Qulam müəllim, belə fürsət ələ düşməz. Birini də söyləyin, - dedim.

- Qazının arvadı hamama gedir. Görür ki, qadınların hamısı lümlüt, anadangəlmə olub çimirlər. Evə gələndə ərinə deyir ki, hamama getmişdim, abrım getdi.

- Niyə?

- Arvadların hamısı lümlüt idi. Bir qərar çıxart, sabahdan qadınlar hamama gedəndə fitə ilə çimsinlər.

Qazı deyir:

- Baş üstə.

Qazı göstəriş verir ki, qadınlar bu gündən hamama gedəndə fitə ilə çimsinlər.

Qazının arvadı növbəti dəfə hamama gedəndə görür ki, qadınların hamısı bellərinə fitə bağlayıb, amma kisəçi belinə fitə əvəzinə qurşaq. Kisəçidən soruşur ki, bu nədi belə belinə bağlamısan? Kisəçi deyir:

- Ağzı yumulmuş qazının ağzını bağlıyacağam.

Qulam Məmmədli ilə yazıçı-jurnalist Rza Şahvələdin zarafatları varmış. Baxmayaraq ki, aralarında on iki yaş fərq vardı. Rza Şahvələd Qulam Məmmədlidən yaşca kiçik olsa da yaşlı həmkarı ilə dostluq edirmiş. Onların bu dostluğu "Kommunist" qəzetində birgə çalışdıqları vaxtdan başlayıbmış.

Bir gün "Elm və həyat" qəzetinin baş redaktoru Rza Şahvələd Mərkəzi Komitənin binasından çıxanda bir tanışı ilə qarşılaşır. Tanışı ondan soruşur ki:

- Xeyir ola, Mərkəzi Komitədən gəlirsən?

- Xeyirdi. "Neftçi" futbol komandasının məsələsi müzakirəyə qoyulmuşdu.

- Nəyə görə?

- Komandaya yaxşı bir qapıçı lazımdı. Ucaboy, cəld, çevik bir adam.

- Tapdınızmı?

- Əlbəttə. "Neftçi"yə Qulam Məmmədlidən gözəl namizəd ola bilməz. Ondan ucaboy adam var?! Dərhal razılaşdılar.

Dostunun bu zarafatı yumoru sevən Qulam Məmmədlinin özünə də ləzzət eləyibmiş. Qarşısına çıxan dost-tanışına özü danışıb gülərmiş.

Qulam Məmmədli iki dəfə evlənmişdi. O, birinci evliliyinə də yumorla yanaşırdı. Deyirdi ki, evə gələndə arvadımı qadın qohumları arasından axtarıb tapa bilmirdim.



Qulam Məmmədli

Qulam Məmmədlinin ikinci ailə həyatı isə uğurlu olub. O, Saratovda olanda özündən yaşca xeyli kiçik Lida adlı bir qızla tanış olur. Onlar bir-birinin xasiyyətinə bələd olduqdan sonra evlənirlər. Lida xanımın atası rus, anası isə alman mənşəli idi.

İndi günü, ayı dəqiq yadımda olmasa da, xəstə olduğu üçün nəşriyyata gələ bilmədiyinə görə, onlara getdiyim yaxşı yadımdadır. Xanımı Qulam müəllimin əyilib yerdən nəsə götürməsinə belə icazə vermirdi. Onun qayğısına elə qalırdı ki Şübhə etmirəm ki, Qulam Məmmədlinin mənalı və uzun bir ömür yaşamasının Allahdan başqa bir səbəbkarı da arvadı Lida xanım idi.

Eşitdiyimə görə, müstəqillik illərində Lida xanım qızı ilə Almaniyaya getmiş, orada dünyasını dəyişmişdir. Çox ibrətamiz haldır ki, Qulam müəllimin qızı anasının nəşini Almaniyada torpağa tapşırmayıb, Vətəni Azərbaycana gətirmişdir. Əlbəttə, bu, nəciblikdən, vətənə bağlılıqdan doğan unudulmaz bir nümunədir.

Rza Şahvələd 1984-cü il iyulun 2-də, Qulam Məmmədli isə 1994-cü il noyabrın 18-də dünyalarını dəyişib. Göründüyü kimi, yaş fərqləri olduğu kimi, əcəl fərqləri də kifayət qədərdi. Burada bəndəlik bir iş yoxdu, ömrü verən Tanrıdı, birinə çox, birinə az. Əsas əməldi. İnsan ömrü yaşla deyil, əməllə ölçülür, xeyirxah əməllə!

1984-cü ildə "Yazıçı" nəşriyyatında Vidadi Babanlının redaktorluğu ilə Rza Şahvələdin "Qonşu qardaşlar" adlı hekayələr kitabı çap olundu. Mən Rza Şahvələdlə nəşriyyatda heç vaxt rastlaşmamışdım. Bilmirəm sonuncu kitabını görmək ona qismət oldu, yoxsa yox. Onun Üzeyir Hacıbəylinin ömrünün axır çağını əks etdirən "Son görüş" essesini isə, bu kitabdan öncə dostu Qulam Məmmədlinin "Üzeyir Hacıbəyov" salnaməsində oxumuşdum. Kiçik, amma çox dəyərli olan bu yazını burada oxuculara təqdim etmək istəyirəm:

"Səməd ağır, asta addımlarla içəri keçdi. Yataq otağının qapısı açıq idi. Üzeyir bəy əlləri sinəsi üstə çarpaz, maddım-maddım ona baxırdı. Üzünün rəngi qaçmışdı. Qəmgin və tutqun idi. Səməd özünü tox göstərməyə çalışaraq addımlarını bir az yeyinlətdi. Çalışdı ki, şən və sərrast yerisin, çünki xəstənin çox sayıq və həssas olduğunu bilirdi; adamın ürəyini üzündən oxuyardı. Yatağına yaxınlaşdıqda Üzeyir qalxıb ona əl vermək istədi, bacarmadı. Xəfif bir təbəssümlə gülümsəyərək həsrət və istəklə Səmədin üzünə baxdı:

- Şair, gəldin. Ah, oğul, könlüm səni necə istəyirdi, bilsən!..

Səmədin alnına soyuq tər gəldi. Qəlbi titrədi. Həyəcanını boğmağa çalışaraq onun soyuq əllərindən öpdü:

- Necəsiniz?

- Görürsən də - susdu. Qaşlarını azacıq yuxarı dartaraq daha mülayim və sakit halda: - Yox, deyəsən, vaxtdır, - dedi. - Sən yaxşı bilərsən, oğul, necə deyib o şair? - Gözlərini bir nöqtəyə dikərək asta-asta öz sualına cavab verdi: - Köçmək gərək bu dar-fənadan yavaş-yavaş

Səmədin ürəyi hüznlə sızladı. Artıq özünü saxlaya bilməyib, dizi üstə yerə çökərək onun taxtını qucaqladı və uşaq kimi ağlamağa başladı. Xəstə titrəyən ipək əlləri ilə onun saçlarını oxşayıb dərindən köksünü ötürdü, bir az sakit və aramla:

- Yox, yox, vaxtdır, - dedi, - köçmək gərək, köçmək bu dar-fənadan yavaş-yavaş!.."

İbtidai təhsilini mollaxanada alan, sonra Bakı teatr texnikumunu bitirən Qulam Məmmədlinin gördüyü işlərin miqyasını bir institut kollektivinin əməyi ilə müqayisə etmək olar. Onun salnamələrinin dəyəri zaman keçdikcə nəinki azalacaq, əksinə, daha da artacaqdır.

***

Mən bu yerdə insan psixologiyasının mənzərəsini canlandırmaq üçün bir qədər nəşriyyat işindən, hörmətli yazarlarımızdan ayrılıb, diqqəti 17 il Sovet İttifaqına rəhbərlik etmiş Baş katib L.İ.Brejnevə yönəltmək istəyirəm. Baş katib lütfkarlıq edib üç dəfə - 1970, 1978 və 1982-ci illərdə Bakıya gəlmişdi. Onun sonuncu səfəri oktyabr ayına təsadüf edirdi. Doğrusu, bu səfərin günü yadımda qalmayıb, amma Brejnevin çuğunduru xatırladan şişkin sifəti indi də gözlərim önündədi. Mən "26 Bakı Komissarı" (indiki "Sahil") metrostansiyasından çıxıb işə getməliydim. Yolu keçərkən bir milis işçisi yolun ortasından məni geri qaytarmaq istədi, bu vaxt cavan milis serjantı bizə yaxınlaşıb məni yolun o üzünə keçirtdi.

- Mustafa müəllim, məni tanımadın?

- Bağışlayın, tanıya bilmədim.

- Mən sizin kəndçiniz Tapdıq kişinin oğlu Akifəm.

Mən bu tanışlıqdan çox şad oldum. İllər ötdü, o zaman kiçik serjant olan həmkəndlim Akif Abışov polkovnik rütbəsinə qədər yüksəldi.

(ardı gələn şənbə sayımızda)